

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 183 (20.837)

1 oktyabr 2013-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Sentyabrın 30-da Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Baş prokuror Zakir Qaralov Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının açılışına gələn Prezident İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına məlumat verən baş prokuror Zakir Qaralov bildirdi ki, 5 və 7 mərtəbəli iki korpusdan, habelə üçmərtəbəli yardımçı bina və yeraltı qarajdan ibarət olan Korrupsiyaya qarşı Mübarizə İdarəsinin yeni inzibati binasının inşasına 2010-cu ilin avqustunda başlanmış və tikinti işləri uğurla başa çatdırılmışdır. Bununla yanaşı, ərazidəki digər binalarda yenidənqurma işləri aparılmış, ətrafda yaşayan insanların istirahətinin təşkili məqsədi ilə yeni park salınmış, yaşıllıq zolaqları genişləndirilmiş, fəvvarələr quraşdırılmışdır.

Dövlətimizin başçısı "Qaynar xətt" əlaqə mərkəzi və onun fəaliyyəti ilə tanış oldu. Korrupsiya hüquqpozmaları barədə müraciətlərin təxirə salınmadan çatdırılması və operativ baxılmasının təmin edilməsi məqsədi ilə yaradılan "161" nömrəli "Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyəti təkmilləşdirilmişdir. Artıq daxil olan zənglərin görmə funksiyasını əks etdirən monitorlar vasitəsilə qəbulu yeni proqram təminatı ilə həyata keçirilir ki, bu da korrupsiyaya daha çox məruz qalan sahələrin müəyyən edilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün təhlillər aparmağa imkan yaradır.

Prezident İlham Əliyev daha sonra korrupsiya cinayətlərinin qarşısının alınması və aşkarlanması istiqamətində əməliyyat-axtarış fəaliyyətinin uğurla həyata keçirilməsi məqsədi ilə elmi-texniki tərəqqinin ən müasir nailiyyətlərini özündə birləşdirən zəruri avadanlıqlar, müasir texniki vasitələrlə təchiz edilmiş otaqlarla tanış oldu.

Sonra Prezident İlham Əliyev Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin kollektivi ilə görüşdü.

## 5 saylı Şahbuz-Babək Seçki Dairəsi prezident seçkilərinə hazırdır

Ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyət kəsb edən prezident seçkilərinə çox az bir vaxt qalır. Seçkilərin şəffaf, demokratik şəkildə keçirilməsi üçün dairə seçki komissiyaları öz işini seçki təlimatlarına uyğun qurmağa çalışır.

5 saylı Şahbuz-Babək Seçki Dairəsində görülən işlərlə yaxından tanışlıq məqsədilə həmin dairədə olduq. Dairə seçki komissiyasının sədri Tamaddin Hüseynov bildirdi ki, muxtar respublikada fəaliyyət göstərən digər dairə seçki komissiyaları kimi, bu dairə üçün də müasir tələblərə cavab verən yeni bina inşa olunub. Burada çalışan komissiya üzvlərinə hərtərəfli iş şəraiti yaradılıb. 5 saylı Şahbuz-Babək Seçki Dairəsinin tərkibində 37 məntəqə fəaliyyət göstərir. Onların 25-i Şahbuz rayonunda, 12-si isə Babək rayonundadır. Seçki dairəsinin əhatə etdiyi ərazilərdə seçicilərin əhval-ruhiyyəsi yüksək səviyyədədir. Aparılan genişmiqyaslı quruculuq tədbirləri, insanların həyat səviyyəsinin gündən-günə yaxşılaşdırılması hər bir seçicidə nikbin ovqat yaradıb.

5 saylı Şahbuz-Babək Seçki Dairəsi üzrə 26 min 432 seçici səs verəcək. Bu rəqəm seçki gününə qədər bir daha dəqiqləşdiriləcək. Sonuncu dəqiqləşməyə görə, səsverənlərin 597 nəfəri ilk dəfə seçki bülleteni alacaq. Seçicilər içərisində 5 nəfərin yaşı 100-dən yuxarıdır.

Dairə seçki komissiyasının sədri xüsusi vurğuladı ki, ölkəmizdə seçkilərin azad və ədalətli, şəffaf keçirilməsi reallıqdır. Bu, beynəlxalq müşahidəçilər tərəfindən də təqdir olunur. Hazırlaşdığımız seçkilərin də demokratik və obyektiv keçəcəyi şəksizdir. Muxtar respublikamızın hər yerində olduğu kimi, bu dairədə də seçkilərə çox ciddi şəkildə hazırlıq görülür.

Həmsöhbətim onu da bildirdi ki, seçkilərin mütəşəkkil keçirilməsi, heç bir qanun pozuntusuna yol verilməməsi üçün dairə və məntəqə seçki komissiyalarının üzərinə böyük məsuliyyət düşür. Odur ki, komissiya üzvləri arasında maarifləndirmə tədbirləri diqqət mərkəzində saxlanılır, seçki prosesinin gedişi, sənədlərin doldurulması ilə bağlı söhbətlər aparılır. Yerlərdə məntəqə seçki komissiyaları üçün keçirilən treninqlərə aidiyyəti qurumların əməkdaşları dəvət edilir, müxtəlif mövzularla bağlı onların çıxışları dinlənilir, komissiya üzvlərinin sualları cavablandırılır. Məntəqələr təlimat, qayda və izahlarla, yaddaş kitabçaları ilə təmin ediliblər. Bu cəhətdən Mərkəzi Seçki Komissiyası tərəfindən göndərilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlıq aparılmasına dair təlimat" xüsusi əhəmiyyət daşıyan sənəddir. Bu sənədlə bütün komissiya üzvləri tanış olublar.

Məntəqələr seçki avadanlıqları və maddi-texniki baza ilə yüksək səviyyədə təmin ediliblər. Bütün məntəqələrə telefon xətti çəkilib, digər texniki tədbirlər başa çatdırılıb.

✍ Muxtar MƏMMƏDOV

## Ötən həftə də iməciliklər yüksək mütəşəkkilliklə keçirilmişdir

*Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biri də regionda ekoloji problemlərin həllinin, ətraf mühitin qorunmasının, təbiətin zənginləşdirilməsinin diqqət mərkəzində saxlanılmasıdır.*

Son 18 ildə diyarımızda yaşıllıq sahələrinin həcminin dəfələrlə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi məhz belə tədbirlərin nəticəsidir. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində görülən tədbirlər davamlı xarakter almış, yeni əkilən ağacların suvarılmasında damcı üsulunun tətbiqi genişləndirilmiş, xeyli meyvə bağları, yaşıllıq zolaqları salınmışdır.

Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıq sahələrinə aqrotexniki qulluq göstərilir.

Sentyabrın 28-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu.

Naxçıvan şəhərinin sakinləri Babək rayonunun Nəzərabad kəndi yaxınlığındakı terrasda, Naxçıvan-Sədərək magistral yolunun kənarlarında və şəhərin müxtəlif ərazilərindəki yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, yaşıllıqlar suvarılmış və alaq otlarından təmizlənmişdir.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun sakinləri Naxçıvan-Sədərək magistral yolunun Dəmirçi kəndindən keçən hissəsindəki 9 hektarlıq meyvə bağında, Yengicə Kənd Mərkəzinin ətrafında yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilmişdir. Rayon sakinləri muxtar respublikanın ekologiyasına öz töhfələrini verməyə çalışmış, Əshabi-Kəhf ziyarətgahına gedən yolun ətrafında və Naxçıvan-Ordubad magistral yolunun Çeşməbasar kəndi hissəsində salınmış yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, yaşıllıq sahələri alaq otlarından təmizlənərək suvarılmışdır.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilmiş, Naxçıvan-Ordubad magistral yolunun sağ və sol hissələrində, Aza-Biləv yolunun kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, həmin sahələr suvarılaraq alaq otlarından təmizlənmiş, Sabirkənd məktəbinin ətrafında 100 ədəd həmişəyaşıl, 300 ədəd gül kolu əkilmişdir.

Culfalılar Naxçıvan-Ordubad magistral yolunun sağ və sol hissələrində, rayonun bütün kənd-lərində xidmət mərkəzlərinin ətrafında olan yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Kəngərli rayonunun sakinləri Naxçıvan-Sədərək magistral yolunun kənarlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Şahbuz rayonunda Naxçıvan-Batabat magistral yolunun kənarlarındakı ağaclara, rayon ərazisindəki yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, alaq otları təmizlənmiş, ağaclar suvarılmışdır.

Sədərəklilər Naxçıvan-Sədərək magistral yolunun sağ və sol hissələrində, Heydərabad qəsəbəsindəki 2,8 hektarlıq meyvə bağında, Qaraağac kəndinə gedən yolun kənarlarında və Mərkəzi Xəstəxananın ətrafında yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

Xəbərlər şöbəsi

*Rusiya Federasiyasının Komi Respublikasının Uxta Dövlət Texniki Universitetinin rektoru, professor Nikolay Tsxadaya və Başqırdıstan Respublikasının Ufa Dövlət Neft Texniki Universitetinin rektoru, professor Ayrat Şammazov Naxçıvan Muxtar Respublikasına səfərləri çərçivəsində Naxçıvan Dövlət Universitetində olmuşlar.*

## Rusiya universitetləri ilə yeni tərəfdaşlığa doğru

Naxçıvan Dövlət Universitetinin rektoru, biologiya elmləri doktoru, professor Saleh Məhərrəmov qonaqlara 1967-ci ildən fəaliyyət göstərən Naxçıvan Dövlət Universiteti haqqında məlumat vermişdir. Qeyd olunmuşdur ki, Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında elmin və təhsilin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. 108 hektarlıq universitet ərazisində hər cür imkanlara malik müasir tədris korpusları qurulmuş, tədrisin müasir dünya standartları səviyyəsinə yüksəldilməsi istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Universitet dünyanın tanınmış 80 ali məktəbi ilə beynəlxalq əməkdaşlığa malikdir. Hazırda bu ali təhsil ocağında 5000-dən yuxarı tələbə, o cümlədən 12 ölkənin 300 nəfərdən çox vətəndaşı ali təhsil alır.

Universitetin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid, elmi işlər üzrə prorektoru, dosent Mübariz Nuriyev, beynəlxalq əlaqələr üzrə prorektoru, riyaziyyat üzrə fəlsəfə doktoru Anar Kazımov, tərbiyə işləri üzrə prorektoru, professor Məmməd Rzayev universitetdə distant təhsilə keçid, elektron universitet layihəsinin reallaşdırılması, beynəlxalq səviyyəli elmi konfrans və simpoziumların təşkili, beynəlxalq əlaqələr və tələbə mobilliyinin artırılması, incəsənət və idmanın inkişafı istiqamətində görülən işlər barədə qonaqlara məlumat vermişlər.

Uxta Dövlət Texniki Universitetinin rektoru, professor Nikolay Tsxadaya, Ufa Dövlət Neft Texniki Universitetinin rektoru, professor Ayrat Şammazov Azərbaycanda, o cümlədən Naxçıvanda sosial-iqtisadi tərəqqi, elm və təhsil sahəsində heyrətamiz dinamik inkişafla qarşılaşdıqlarından məmnunluqla danışmışlar. Hər iki rektor Avropa və Asiyada ilk neft-qaz tədris müəssisəsi olan Azərbaycan Dövlət Neft Akademiyasının elmi yetirmələri olduqlarını, Rusiyanın şimal bölgəsində yüksəkixtisaslı azərbaycanlı mütəxəssislərin uğurla fəaliyyət göstərdiklərini vurğulamışlar.

Professor Ayrat Şammazov məlumat vermişdir ki, 1948-ci ildə M.Qubkin adına Moskva Neft-Kimya və Qaz Sənayesi İnstitutunun filialı kimi yaradılan Ufa Dövlət Neft Texniki Universiteti Rusiyanın bu sahə üzrə ən iri ali təhsil müəssisədir. Rektor rəhbərlik etdiyi ali təhsil müəssisəsində təhsilin bakalavr, magistratura, doktorantura pillələri üzrə mütəxəssis hazırlığından danışaraq 200-ə yaxın elmlər doktoru və professorun fəaliyyət göstərdiyini, 17 minə yaxın tələbənin, o cümlədən 36 ölkənin vətəndaşının ali təhsil aldıqlarını bildirmişdir.

Uxta Dövlət Texniki Universitetinin rektoru, professor Nikolay Tsxadaya qeyd etmişdir ki, rəhbərlik etdiyi ali təhsil ocağında 7 fakültə, iki institut, 1 texniki kollec və 2 filial fəaliyyət göstərir. 8 mindən artıq tələbənin təhsil aldığı bu ali məktəbdə 50 professor, 53 elmlər doktoru, bütövlükdə, 1500-ə yaxın əməkdaş çalışır. Qonaqlar hər iki ali məktəbin Azərbaycan Dövlət Neft Akademiyası və Sumqayıt Dövlət Universiteti ilə əməkdaşlıq əlaqələrinə malik olduğunu xatırladaraq Naxçıvan Dövlət Universiteti ilə də tərəfdaşlığa maraqlı olduqlarını bildirmişlər. Tədbirdə iqtisadiyyat, sənaye, mühəndislik və memarlıq, idman sahələrində əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Qonaqlar Beynəlxalq münasibətlər və xarici dillər fakültəsi, Tələbə evi və Qonaq evi, Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsindəki tədris və elmi-tədqiqatyönlü laboratoriyalar, universitetin yeni nəsil texnologiyalarla təchiz olunmuş elektron kitabxanası ilə tanış olmuşlar.

Sonda Naxçıvan Dövlət Universiteti ilə hər iki universitet arasında elmi-tədqiqat və tədris sahələrində əlaqələrin inkişafına dair əməkdaşlıq müqavilələri imzalanmışdır.

Mehriban SULTAN

***Ulu öndər Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən, hər il oktyabr ayının 1-i "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd olunur. Peşə bayramı gününün təsis edilməsi dövlət qurumları sırasında xüsusi yeri olan prokurorluq orqanlarına böyük qayğının ifadəsi olmaqla yanaşı, prokurorluq işçilərinin fəaliyyətinin layiqincə qiymətləndirilməsinin təzahürüdür. Bu il Azərbaycan prokurorluq orqanlarının yaradılmasının 95 illiyi tamam olur.***

*1 oktyabr prokurorluq işçilərinin peşə bayramıdır*

# Azərbaycan prokurorluq orqanları dövlətçilik maraqlarına xidmət edir

Prokurorluq orqanlarının dövlətçilik maraqlarına, qanunun aliliyinə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edən sivil və demokratik orqan kimi formalaşması, onun səmərəli fəaliyyətinin təşkili ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır. Əsas Qanunda prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilmişdir.

***"Mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram"***, – deyən ulu öndərin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi bu orqanın səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Bu gün də ölkəmizdə prokurorluq orqanlarının fəaliyyətinin gücləndirilməsi diqqət mərkəzində saxlanılır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Dövlətimizin başçısı prokurorluq orqanlarının inkişafını həm də peşəkar prokurorluq əməkdaşlarının hazırlanmasından asılı olduğunu bildirərək demişdir: ***"Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır".***

Naxçıvan Muxtar Respublikasında prokurorluq orqanları həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, muxtar respublika prokurorluğu və tabe rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikada sosial-iqtisadi və demokratik inkişafa uyğun olaraq, hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət göstərilir.

Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək Rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur Rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalist avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər 2012-ci ildə də davam etdirilmiş, Naxçıvan Şəhər və Babək Rayon prokurorluqlarının inzibati binalarının açılışı olmuşdur. İnzibati binalarda prokurorluq əməkdaşlarının fəaliyyəti üçün nümunəvi şərait yaradılmış, binalar yeni kompüter və mebel dəstləri ilə təchiz edilmişdir. Prokurorluq işçiləri üçün belə yüksək iş şəraitinin yaradılması onların üzərinə daha da yaxşı işləmək vəzifəsini qoymuşdur.



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də "Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası qanunları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmişdir. "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqlarına uyğun olaraq, cinayət hadisələrinin qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublika cinayətkarlığın səviyyəsi baxımından ən stabil regiona çevrilmiş, cinayət hadisələrinin sayı dəfələrlə azalmış, muxtar respublika cinayətsiz regiona çevrilmişdir. Bununla bağlı hüquqi maarifləndirmə işinin əhəmiyyətini qeyd edən Ali Məclisin Sədri demişdir: ***"Hüquqi maarif işinin təşkil edildiyi bir cəmiyyətdə işləmək də, yaşamaq da rahatdır və belə cəmiyyət inkişaf edir. Ona görə də bizim əsas vəzifələrimiz hüquq maarifi işini gücləndirməkdən ibarət olmalıdır".*** Ali Məclis Sədrinin proqram xarakterli tapşırıqlarını muxtar respublikanın prokurorluq orqanları özləri üçün prioritet vəzifə kimi qəbul edərək əsas diqqəti həyata keçirilən profilaktik tədbirlərin təsirliliyinin artırılmasına yönəltmişlər. Çünki demokratik dövlət quruculuğunda insanların sağlam hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir. Hüquq maarifinin yüksək səviyyədə olması muxtar respublika prokurorluğunun əməkdaşları özləri üçün əsas vəzifə hesab edərək bu istiqamətdə işlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar. Ona görə ki, vətəndaşın hüquq mədəniyyəti onun öz vəzifələrini yerinə yetirməsi üçün əsas şərtdir.

Prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına yeniləşdirilməsi üçün ciddi zəmin yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğu Naxçıvan Muxtar Respublikası ərazisində yayayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

**Peşə bayramlarını qeyd edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da ümummilli lider Heydər Əliyevin siyasi xəttinin davam etdirilməsində, dövlətçiliyin qorunması, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar.**

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun***
***Hüquqi təminat və informasiya şöbəsi***

***Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 1992-ci ildə qəbul etdiyi qətnaməyə uyğun olaraq, hər il oktyabrın 1-i "Beynəlxalq Ahıllar Günü" kimi qeyd olunur. Bu günün qeyd olunmasında məqsəd ahılların sosial problemlərini öyrənmək və ictimaiyyətin diqqətini onların həllinə yönəltməkdir.***

*1 oktyabr Beynəlxalq Ahıllar Günüdür*

# Ahıl vətəndaşlar dövlətimizin qayğısı əhatəsindədirlər

Xalqımızın ümummilli lideri Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşmış, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilmişdir. 2011-ci il dekabr ayının 30-da qəbul edilmiş "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, 70 yaşına çatmış hər bir şəxs ahıl sayılır. Azərbaycanda bu təbəqədən olan insanların sosial müdafiəsinin gücləndirilməsi, maddi və mənəvi tələbatlarının ödənilməsi uğurla həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir.

Ölkəmizdə yaşlı insanların problemlərinə həssas münasibət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də diqqət mərkəzindədir. Dövlət başçısının "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 2006-cı il 17 aprel tarixli Sərəncamı ahılların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində davamlı islahatların həyata keçirilməsinə, ölkəmizdə ahılların sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına imkan yaratmışdır.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində ahıl vətəndaşlara göstərilən xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmiş, onların sağlam həyat tərzində yaşamaları, maddi və mənəvi tələbatlarının ödənilməsi, eyni zamanda cəmiyyətin həyatında fəal iştirakları üçün hərtərəfli şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"nın icrası dövlətimizin ahıl vətəndaşlara göstərdiyi sosial-mənəvi dəstəyin bariz nümunəsidir. Bu proqram ahıl şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən islahatların davamlılığını təmin etmişdir.

Son 10 ildə muxtar respublikada ahılların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində intensiv tədbirlər həyata keçirilmişdir. Bu müddət ərzində pensiyaların məbləği 8,6 dəfə, müavinətlərin məbləği 3 dəfə artırılmış, 1941-1945-ci illər müharibəsinin iştirakçısı olan 87 ahıl minik maşını ilə, habelə 1030 ahıl protez-ortopediya məmulatları və texniki reabilitasiya vasitələrilə təmin edilmişdir. Muxtar respublikamızda yaşayan tənha ahıllara göstərilən sosial xidmətin səmərəliliyini təmin etmək üçün onların hər biri haqqında məlumat bazası yaradılmışdır. Hazırda tək yaşayan və hərəkət qabiliyyəti məhdudlaşmış 545 ahıl vətəndaşa öz mənzillərində Əhalinin Sosial Müdafiəsi mərkəzləri tərəfindən sosial xidmət göstərilir.

Muxtar respublikada müasir səhiyyə ocaqlarının tikilməsi, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin davamlı olaraq yüksəldilməsi sağlam həyat tərzinin bərpa olunması sahəsində həyata keçirilən mühüm tədbirlərdəndir. Ahıl insanların sağlamlıqlarının qorunması, tibbi-sosial reabilitasiyasının təşkili bu mənada xüsusi diqqət yetirilən məsələdir. Cari ilin 9 ayı ərzində 32 ahıl Naxçıvan Əlillərin Bərpa Mərkəzində müalicə olunmuş, 14 ahıl isə respublikamızın sanatoriya və pansionatlarında müalicə olunmaları üçün göndərişlərlə təmin edilmişdir. Hərəkət fəaliyyətlərini yaxşılaşdırmaq, cəmiyyətə inteqrasiyalarını təmin etmək məqsədilə 45 ahıla səyyar protez-ortopediya xidməti göstərilmiş, həmçinin ehtiyacı olanlara texniki-bərpa vasitələri verilmişdir. Ahıllara evlərində baş çəkilmiş, zəruri sosial problemləri yerindəcə həll olunmuş, onlara ərzaq payı və hədiyyələr təqdim edilmişdir.

Şahbuz rayonunda Ahıllar evinin fəaliyyət göstərməsi tənha ahıllara göstərilən dövlət qayğısının daha bir nümunəsidir. Burada ailədən təcrid olunmuş insanların yenidən cəmiyyətə inteqrasiya olunmasına köməklik göstərilir, ahılların problemlərinin həllinə çalışılır. Ahıllar evində hər cür məişət şəraiti yaradılmış, burada yaşayan sakinlər üçün əkin sahəsi ayrılmış, arıçılıq təsərrüfatı yaradılmış, bir sözlə, ahılların fəal həyat tərzi keçirməsi təmin olunmuşdur. Hazırda burada 21 sakin yaşayır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Tibbi-Sosial Ekspert Komissiyasının həkimləri mütəmadi olaraq Ahıllar evinə gələrək sakinləri müayinədən keçirir, müalicələrinə köməklik göstərir, eyni zamanda ehtiyacı olanlar müxtəlif texniki-bərpa vasitələri ilə təmin edilirlər. Əlamətdar günlərdə də Ahıllar evinin sakinləri ilə görüşlər təşkil olunur, onlara sovqatlar təqdim edilir.

Ahılların əmək fəaliyyəti imkanları nəzərə alınaraq onların məşğulluğunun təmin olunması, maddi təminatlarının yaxşılaşdırılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Ahıllar arasında yaradıcılıq müsabiqələri, əl işlərindən ibarət sərgilər, stolüstü oyunlar üzrə yarışlar təşkil olunur, bayram və əlamətdar günlərdə onlarla görüşlər keçirilir. Bununla yanaşı, 100 yaşı tamam olanların yubiley tədbirlərinin, evliliklərinin 50-ci, 60-cı ildönümlərinin qeyd olunması, sosial xidmət göstərilən tənha ahılların muxtar respublikamızın görməli yerlərinə gəzintilərinin təşkili, həftənin şənbə günləri onların evlərində iməciliklərin keçirilməsi artıq ənənəyə çevrilmişdir. Bu il də Beynəlxalq Ahıllar Günü münasibətilə muxtar respublikamızda ahılların iştirakı ilə silsilə tədbirlər həyata keçirilmiş və ümumilikdə, 545 tənha ahıla bayram sovqatı təqdim olunmuşdur.

*Muxtar respublikamızda ahılların sosial müdafiəsinin gücləndirilməsi, onların sosial rifahlarının yaxşılaşması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

# Seçki hüququnun anlayışı, əhəmiyyəti və prinsipləri

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır". Hər bir müstəqil ölkədə hüquqi dövlət quruculuğunun formalaşması isə demokratik prinsiplərə əsaslanan seçki hüququ ilə təmin edilir.**

**Ölkəmiz müstəqillik qazandıqdan sonra özünün dövlət institutlarının yaradılması ilə yanaşı, bu təsisatların seçki hüququ əsasında formalaşdırılması məqsədilə qanunvericilik bazasının işlənib hazırlanması prosesinə də başlanılmışdır.**

Seçki hüququ vətəndaşların dövlət orqanlarının təşkilinə birbaşa təsirini ifadə edən, dövlət hakimiyyətini legitimləşdirən, müstəqil Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr tarixdə qəbul olunmuş Konstitusiyası səviyyəsində təsbit edilmiş əsas hüquqlar sırasındadır.

Seçki hüququ beynəlxalq hüquq normaları səviyyəsində qəbul olunmuş müasir demokratik cəmiyyət üçün vacib dəyərlərdən biri hesab olunmaqla BMT-nin Baş Assambleyasının 1948-ci ildə qəbul etdiyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsində də öz əksini tapmışdır. Sözügedən Bəyannamənin müvafiq maddəsinə görə, xalqın iradəsi hökumətin hakimiyyətinin əsası olmalı, bu iradə öz ifadəsini periodik keçirilən və saxtalaşdırılmayan seçkilərdə tapmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasında seçki hüququnu müəyyən edən xüsusi maddə vardır. Konstitusiyanın 56-cı maddəsində Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ nəzərdə tutulmuşdur.

Seçki hüququ vasitəsilə xalq öz suveren hüquqlarını həyata keçirir. İnkişaf etmiş ölkələrin insan hüquqları sahəsində ən mütərəqqi nailiyyətlərini özündə birləşdirən Azərbaycan Respublikasının Konstitusiyasının ikinci maddəsində müəyyən olunmuşdur ki, Azərbaycan xalqı öz suveren hüququnu ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqları Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Seçki Məcəlləsi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu və digər qanunvericilik aktlarında nəzərdə tutulmuşdur.

Seçki hüququ geniş anlayış olmaqla vətəndaş hüquqlarının başlıca təzahürlərindən biri hesab edilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 1.1.8-ci maddəsinə əsasən, seçki hüququ Azərbaycan Respublikası Milli Məclisinin deputatlarını, Azərbaycan Respublikasının Prezidentini, bələdiyyələrə üzvləri seçmək və həmin orqanlara, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilmək hüququ, o cümlədən namizədlərin irəli sürülməsində, seçkiqabağı (referendumqabağı) təşviqatda, seçki (referendum) komissiyalarının işində, seçkilərin (referendumun) nəticələrinin müəyyən edilməsi də daxil olmaqla səsvermədə, digər seçki (referendum) hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququdur.

Seçki hüququ anlayışının nəzərdə tutulduğu maddənin məzmunundan da aydın olduğu kimi, seçki hüququ iki hissəyə bölünür: passiv seçki hüququ və aktiv seçki hüququ. Passiv seçki hüququ dedikdə vətəndaşların seçilmək imkanı, aktiv seçki hüququ dedikdə isə vətəndaşların seçmək imkanı nəzərdə tutulur.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 12-ci maddəsi aktiv seçki hüququnun mənsubiyyətini, 13-cü maddəsi isə passiv seçki hüququnun mənsubiyyətini konkret olaraq müəyyən etmişdir.

Həmin məcəllənin 12-ci maddəsinə əsasən, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, Milli Məclisə seçkilərin, prezident seçkilərinin, bələdiyyələrə seçkilərin, referendum keçirilməsi günü (həmin gün də daxil olmaqla) 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının seçmək, referendumda səs vermək, seçkilərin (referendumun) gedişini müşahidə etmək, seçkiqabağı (referendumqabağı) təşviqatda iştirak etmək, seçki hərəkətlərində və referendumun hazırlanması ilə bağlı hərəkətlərin həyata keçirilməsində iştirak etmək hüququ – aktiv seçki hüququ vardır.

Yuxarıda qeyd olunan tələblərə cavab verən, Azərbaycan Respublikasında 5 ildən az olmayaraq daimi yaşayan, vətəndaşlığı olmayan şəxslər prezident seçkiləri, Milli Məclisə seçkilər, bələdiyyə seçkiləri və ya referendum zamanı, habelə müvafiq bələdiyyənin ərazisində 5 ildən az olmayaraq yaşayan xarici ölkənin vətəndaşları bələdiyyə seçkiləri zamanı səsvermədə iştirak edə bilərlər.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 13-cü maddəsinə əsasən, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, aktiv seçki hüququna malik hər bir vətəndaşın referendum üzrə təşviqat qruplarının yaradılmasının təşəbbüsçüsü olmaq, Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən edilmiş prezidentliyə, deputatlığa, bələdiyyə üzvlüyünə namizədlər üçün irəli sürülən tələblərə cavab verdikdə Milli Məclisin deputatı, Prezident, bələdiyyə üzvü seçilmək hüququ – passiv seçki hüququ vardır.

Seçki hüququ qanunla nəzərdə tutulmuş hallarda məhdudlaşdırıla bilər. Bu cür məhdudlaşdırılma ilə bağlı Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və müvafiq olaraq Azərbaycan Respublikası Seçki Məcəlləsinin 12, 13 və 14-cü maddələrində konkret əsaslar nəzərdə tutulmuşdur.

Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslər seçkilərdə, habelə referendumda iştirak etmək hüququndan – aktiv seçki hüququndan məhrumdurlar. Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər, ikili vətəndaşlığı olan Azərbaycan Respublikasının vətəndaşları (ikili vətəndaşlıq aradan qalxanadək), xarici dövlətlər qarşısında öhdəlikləri olan Azərbaycan Respublikasının vətəndaşları (həmin öhdəliklərə xitam verilənədək), ağır və xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslərin passiv seçki hüququ yoxdur. Hərbi qulluqçular (hərbi qulluqda olduqları müddətdə), hakimlər (hakim olduqları müddətdə), dövlət qulluqçuları (dövlət qulluğunda olduqları müddətdə), din xadimləri (peşəkar dini fəaliyyət ilə məşğul olduqları müddətdə) tutduqları vəzifələrə görə Milli Məclisin deputatı, Prezident, bələdiyyə üzvü ola bilməzlər.

Seçkilərdə (referendumda) iştirakın prinsiplərinə – ümumi, bərabər, birbaşa seçki hüququ prinsipləri, eləcə də səsvermənin gizliliyi, şəxsi səsvermə, seçkilərdə (referendumda) iştirakın azad və könüllülüyü prinsipləri daxildir.

***Ümumi seçki hüququ prinsipi*** dedikdə irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və başqa ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikası vətəndaşlarının seçmək, seçilmək və referendumda iştirak etmək hüququ nəzərdə tutulur.

***Bərabər seçki hüququ prinsipi*** Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş bərabərlik hüququna əsaslanır, vətəndaşların seçkilərdə və referendumda bərabər əsaslarla iştirakını nəzərdə tutur. Bu prinsip hər bir seçici üçün seçkilərin nəticələrinə bərabər təsir etmək imkanını müəyyən edir. Hər bir səsvermə zamanı hər bir vətəndaşın bir səsi vardır və hər bir səs eyni hüquqi qüvvəyə malikdir.

***Birbaşa seçki hüququ prinsipi*** vətəndaşların seçkilərdə namizədin lehinə, referenduma çıxarılan məsələnin lehinə və ya əleyhinə şəxsən səs verməsi hüququdur. Azərbaycan Respublikası Seçki Məcəlləsində birbaşa olaraq müəyyən edilmişdir ki, başqa şəxslərin yerinə səs vermək qadağandır. Başqalarının əvəzinə səs verən və ya bunun üçün şərait yaradan vətəndaşlar Azərbaycan Respublikası Cinayət Məcəlləsində və ya İnzibati Xətalar Məcəlləsində göstərilən müvafiq məsuliyyətə cəlb olunurlar.

***Səsvermənin gizliliyi prinsipi*** səsvermə prosesində kənar şəxslərin müdaxiləsinə yol verilməməsi, şəxsin səsvermə anında ona öz seçimini hamıdan təcrid olunmuş yerdə təkbaşına həyata keçirmək üçün imkan yaradılması, seçicilərin iradəsinin ifadəsi üzərində hər hansı nəzarətin istisna edilməsi hallarını özündə ehtiva edir.

***Şəxsi səsvermə prinsipi*** birbaşa seçki hüququ prinsipi ilə sıx bağlı olub, seçkilər zamanı səsvermənin hər bir şəxsin yalnız özü tərəfindən həyata keçirilməsinə icazə verildiyini və bu hüququn həyata keçirilməsinin başqa şəxsə etibar olunmasının mümkünsüzlüyünü nəzərdə tutur.

***Seçkilərdə (referendumda) iştirakın azad və könüllülüyü prinsipi*** vətəndaşların seçkilərdə və referendumda iştirakın azad və könüllü olmasını, seçkilərdə (referendumda) iştirak edib-etməməklə bağlı Azərbaycan Respublikası vətəndaşlarına təzyiq göstərilməsinin yolverilməzliyini, heç kəsin vətəndaşın öz iradəsini azad ifadə etməsinə mane olmamasını nəzərdə tutur.

Seçki hüququ ilə vətəndaşların ayrı-ayrı şəxslərə münasibət bildirməsi müvafiq hüquqi nəticələr və vəzifələr yaradır. Həmin hüquqi nəticələr və vəzifələr şəxsin vəzifəyə seçilməsini, dövlət orqanının formalaşdırılmasını təmin edir.

Seçki hüququ seçkilərin keçirilməsi zamanı xalqın hüquq düşüncəsinin genişləndirilməsinə, onun siyasi cəhətdən aktivliyinin artırılmasına, xalqı daha uğurlu idarə edə biləcək, onun daha çox inamını qazanmış qüvvələrin hakimiyyətə gəlməsinə şərait yaratmaqla cəmiyyətin "siyasi barometri" qismində çıxış edir. Dünya dövlətləri sırasında respublika quruluşlu dövlətlərin yaranmasının üstünlüyü nəzərə alınmaqla seçki hüququ gələcəkdə də xalqın seçmək və seçilmək hüququndan istifadə imkanlarını artırır, dövlət hakimiyyətinin ali orqanlarının formalaşdırılmasında ən düzgün variant olaraq istifadə edilməsinə zəmin yaradır.

***Seçki hüququnun əhəmiyyəti cəmiyyət üçün çox böyükdür. Burada konkret şəxslərin deyil, bütöv halda cəmiyyətin mənafeyi nəzərdə tutulur. Seçki hüququ hakimiyyətin formalaşdırılmasının hüquqi əsası olmaqla siyasi qüvvələrin ölkənin inkişafında irəli sürdükləri proqramları və siyasi əhval-ruhiyyəni aşkara çıxarır, xalqa bilavasitə dövlət hakimiyyətinə təsir etmək imkanı yaradır.***

**Vüqar QULİYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi***

**Hazırda cəmiyyətimiz sürətli sosial-iqtisadi inkişaf mərhələsindədir. Bu inkişaf proseslərinə uyğun olaraq, iqtisadi həyatda sığorta kimi bir çox vacib münasibətlərin də genişləndirilməsi, onun müxtəlif növlərinin tətbiqinin sürətləndirilməsi tələb olunur. Muxtar respublikamızda sığorta fəaliyyətini günün tələbləri səviyyəsində qurmaq üçün verilmiş tapşırıqların icrası istiqamətində görülən işlər qısa müddətdə bu vacib sahənin fəaliyyətini genişləndirməyə, insanların risklərini sığortalamaqla sosial müdafiəsini daha yaxşı təşkil etməyə imkan vermişdir. Sığorta maarifçiliyini genişləndirmək və daşınmaz əmlakın icbari sığortası zamanı əhalini maraqlandıran bəzi suallara cavab vermək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinə müraciət etdik. Müsahibimiz agentliyin aparıcı mütəxəssisi Hafiz Hüseynovdur.**

# Daşınmaz əmlakın icbari sığortası vacib məsələdir

***– Hafiz müəllim, vətəndaşlara məxsus daşınmaz əmlakın icbari sığortası nə üçün vacibdir və o, hansı qanun və fərman əsasında aparılır?***

– Məlumdur ki, insanın iqtisadi fəaliyyətinin əsas məqsədi rifah içində yaşamaqdır. Bunun üçün daha çox maddi nemətlər istehsalı və onlardan səmərəli istifadə edilməsi vacib şərtdir. Maddi nemətlər içərisində isə əmlak və xüsusən də daşınmaz əmlak hər bir insan üçün təməl ehtiyaclardan hesab olunur. Belə ki, daşınmaz əmlak hər bir vətəndaşın normal yaşayışı üçün həyati tələbat sayılır. Ona görə də əmək sərf edib daşınmaz əmlak əldə etmək qədər onun risklərdən qorunması da hər bir insanın əsas qayğılarındandır. Daşınmaz əmlakın risklərə qarşı sığorta olunması bu baxımdan vətəndaşların sosial müdafiəsinin ən mühüm istiqamətlərindən biri olub, dövlətin müvafiq qanunları ilə tənzimlənir. Çünki daşınmaz əmlak qiymətli olduğu qədər onun itirilməsi və ya zərər görməsi halında dəymiş zərər də böyük olacaq, insanların normal şəraitdə yaşamaq imkanları azalacaqdır. Ona görə də vətəndaşlara məxsus daşınmaz əmlakın sığortası icbari qaydada həyata keçirilən bir tədbir kimi çox mühüm əhəmiyyət daşıyır. Ölkəmizdə vətəndaşlara məxsus daşınmaz əmlakın icbari sığortası 24 iyun 2011-ci il tarixli "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa və "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanunun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2011-ci il tarixli Fərmanına əsasən aparılır.

***– Vətəndaşlara məxsus hansı daşınmaz əmlak icbari sığorta olunur, hansılar icbari qaydada sığorta olunmur?***

– Vətəndaşlara məxsus daşınmaz əmlak onların yaşayışı vacib olan tikililərdir. Qanuna görə, bunlar yaşayış evləri və mənzillər hesab edildiyindən icbari qaydada sığorta olunurlar. Vətəndaşlara məxsus digər daşınmaz əmlak növləri – təsərrüfat tikililəri, tövlə, ev damı, qaraj, hasar və sair kimi tikililər birbaşa insanların yaşamağı üçün nəzərdə tutulmadığından onların icbari qaydada sığortası da həyata keçirilmir. Ona görə də daşınmaz əmlakını icbari sığorta etdirən vətəndaşların qanunda dəqiq şəkildə göstərilmiş bu cəhətləri nəzərə almaları tövsiyə olunur.

***– Vətəndaşlara məxsus daşınmaz əmlakın icbari sığortası və sığorta haqqı hansı məbləğdə müəyyənləşdirilir?***

– Hazırda vətəndaşlara məxsus daşınmaz əmlakın icbari sığortası Naxçıvan şəhərində sığorta məbləği 20 min manat, sığorta haqqı 40 manat, muxtar respublikanın digər rayon və kəndlərində isə sığorta məbləği 15 min manat, sığorta haqqı 30 manat müəyyənləşdirilmişdir. Göstərilən sığorta haqlarının miqdarına gəldikdə isə, onu qeyd etmək lazımdır ki, vətəndaşlardan alınan 0,2 faiz tariflik sığorta haqqı onların sosial müdafiəsinə xidmət edir. Belə ki, könüllü sığorta üzrə əmlak sığortasında sığorta haqqı bu tarifdən xeyli yuxarı səviyyədə müəyyənləşdirilir.

***– Baş verən hansı hadisələr sığorta hadisəsi hesab olunur və hansı hadisələr nəticəsində vətəndaşların yaşayış yerlərinə və mənzillərinə dəymiş zərər məbləği sığortaçı tərəfindən ödənilməlidir?***

– İcbari sığorta haqqında qanuna əsasən, daşınmaz əmlakın aşağıdakı hallar nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı digər formada itkisi sığorta hadisəsi hesab olunur. Bunlar yanğın, ildırım düşməsi, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində baş verən qısaqapanma, buxar qazanlarının, qaz anbarlarının, qaz kəmərlərinin, maşınların, aparatların və digər oxşar qurğuların və ya cihazların partlayışı, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən, otaqlardan daxil olan su nəticəsində subasma, hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri, yerüstü nəqliyyat vasitəsinin dəyməsi, təbii fəlakətlər – zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi, üçüncü şəxslərin hərəkətləri sığorta hadisəsi hesab olunur. Bu hadisələr nəticəsində vətəndaşlara dəymiş zərərlər sığortalılara ödənilir.

***– Vətəndaşlara məxsus daşınmaz əmlakın icbari sığortası zamanı hansı hadisələr nəticəsində dəymiş zərər məbləği sığortaçı tərəfindən ödənilmir?***

– Göründüyü kimi, haliyədə qüvvədə olan qanun bir çox riskli hadisələr nəticəsində vətəndaşların daşınmaz əmlakına dəymiş zərərlərin icbari sığorta yolu ilə əvəzinin ödənilməsinə imkan verir. Ancaq bəzi hallar vardır ki, bunlar qanunda nəzərdə tutulmadığından müəyyən hadisələr nəticəsində daşınmaz əmlaka zərər dəysə də, sığorta ödənişi verilmir. Belə hallar sığorta müqaviləsi bağlanmamışdan əvvəl yaşayış evinə dəymiş zərərlər və qanunda nəzərdə tutulmuş sığorta hadisələrindən başqa, yəni sığortalının faydalanan şəxsin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlər, sığortalanmış əmlakın təmiri, qrunt sularının səviyyəsinin dəyişməsi, suyun borularda və ya rezervuarlarda aşınma, şaxtavurma, yeyilmə, tədricən xarabolma, köçürülməsi və ya tutumunun artırılması nəticəsində axının baş verməsi kimi hallar hesab olunur. Belə hadisələr nəticəsində daşınmaz əmlak sahibinə sığorta ödənişi verilmir.

**✍ Əli CABBAROV**

# Muxtar respublikanın ən uzunömürlü sakini ilə görüş

Dünya binə olandan insanlar uzunömürlülüyün sirlərini öyrənməyə çalışıblar. Lakin günümüzədək bu sirrin üstü açılmaz qalsa da, sevindirici haldır ki, bu sirri daşıyanlar, yəni uzunömürlülər hələ də aramızda var. Onlardan biri də Şərur rayon sakini Qönçə Hümbətovadır. Ömrünün 115-ci payızını yaşayan Qönçə Hümbətova 1 iyul 1898-ci ildə Vedi rayonunun Qədirli kəndində anadan olub. 1905-ci ildə ermənilərin Qədirli kəndini yandırmasından sonra anası ilə Naxçıvana gələrək burada məskunlaşıb. Üç əsrə şahidlik edən Qönçə nənənin 1 oğlu, 4 nəvəsi, 8 nəticəsi, 3 kötücəsi var.

1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Şərur Rayon İcra Hakimiyyətinin əməkdaşları muxtar respublikanın ən uzunömürlü sakini Qönçə Hümbətova ilə görüşüblər. Görüşdə qeyd edilib ki, muxtar respublikada uzunömürlü insanların sosial vəziyyətinin yaxşılaşdırılması dövlətimizin diqqət mərkəzindədir. Onlara müxtəlif sosial xidmətlər göstərilir, onların sağlamlıqları qayğısına qalınır, maddi və mənəvi tələbatlarının ödənilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu görüş də həmin sosial tədbirlərdən biridir.

Ona göstərilən qayğıya görə Qönçə Hümbətova minnətdarlığını bildirib.

Görüşdə muxtar respublikanın ən yaşlı sakininə hədiyyə verilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Tenderə dəvət

*Tarix: 30 sentyabr 2013-cü il*

*Kredit nömrəsi və adı: 2842-AZE "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı-Layihə 2"*

*Müqavilənin nömrəsi və adı:*

*MFF-033-T2-İCB-1.06 Naxçıvan şəhərində hovuzdan xaric membran bioreaktor texnologiyalı çirkab sutəmizləyici qurğunun tikintisi (Beynəlxalq rəqabətli tender)*

*Təkliflərin son təqdimetmə tarixi:*

*10 dekabr 2013-cü il, saat $10^{00}$ (Bakı vaxtı ilə)*

1. Azərbaycan Respublikası Hökuməti (bundan sonra "Borcalan" olaraq adlandırılacaq) "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı-Layihə 2"-nin icrası üçün xərclərin ödənilməsi məqsədilə Asiya İnkişaf Bankından (AİB) kredit almışdır. Bu kreditin bir hissəsi yuxarıda adıçəkilən müqavilə üzrə ödənişlər üçün istifadə olunacaqdır. Tenderdə AİB üçün məqbul ölkələr iştirak edə bilərlər. "Məqbul/qeyri-məqbul" əsaslı ixtisas uyğunluğu şərtləri 3-cü bölmədə "Tender sənədlərinin qiymətləndirilməsi və ixtisas uyğunluğu kriteriyası" başlığı altında göstərilib.

2. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi (DMSTK) "Sifarişçi" Naxçıvan şəhər hovuzdan xaric membran bioreaktor texnologiyalı çirkab sutəmizləyici qurğunun tikintisi üçün aşağıdakı işlər daxil olmaqla münasib ölkələrdən olan və hovuzdan xaric membran bioreaktor texnologiyalı çirkab sutəmizləyici qurğunun tikintisində geniş təcrübəyə malik iddiaçıları tenderə dəvət edir.

3. İnzibati və informasiya binasından, filtr kanalından, qum kamerasından, stabilləşdirici hovuzdan, anaeroib və aeroib anoksik çənlərdən hovuzdan kənar membran bioreaktor sistemi və lazımi avadanlıqlardan, generator və transformator binasından, tullantı çənindən və tullantıların qurudulması qurğusundan, xlorlama qurğusundan, SCADA (məlumatın toplanması və nəzarət) sistemindən, klapan kameralarından, asfalt yoldan, sahə işlərindən və sairdən ibarət, orta sərfiyyatı 1327m$^3$/saat, pik saatlarında isə 700 l/san. olan çirkab sutəmizləyici qurğunun tikintisi.

Nəzərdə tutulan icra müddəti 548 gündür.

4. Yuxarıda qeyd edilən işlərin hamısı çertyoj və spesifikasiyada göstərilənlərə uyğun olaraq həyata keçirilməlidir. İddiaçı ətraflı məlumat əldə etmək üçün bu tender sənədlərinin "işverənin tələbləri", fəsil 6-ya baxmalıdır.

5. Əlavə məlumat əldə etmək və tender sənədlərini nəzərdən keçirmək üçün iddiaçılar aşağıda göstərilən ünvanla əlaqə saxlaya bilərlər.

***Əlaqələndirici şəxs: İbrahim Məmmədov***

***Layihə İdarəetmə Qrupunun direktoru***

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi (birinci mərtəbə, iclas zalı)***

***Naxçıvan şəhəri, Xətai məhəlləsi,***

***Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası***

***Telefon: (+99436) 545-26-18***

***Faks: (+99436) 545-30-67***

***Elektron ünvan: dmstk@nakhchivan.az***

6. Tender sənədlərini ingilis dilində əldə etmək üçün münasib iddiaçılar:

• Naxçıvan şəhərində hovuzdan xaric membran bioreaktor texnologiyalı çirkab sutəmizləyici qurğunun tikintisi tender sənədlərini ingilis dilində əldə etmək üçün yazılı olaraq yuxarıdakı ünvana müraciət edə bilərlər;

• 200 manat və ya 250 ABŞ dolları məbləğində geri qaytarılmayan vəsaiti aşağıdakı hesab nömrəsinə köçürməlidir. İtki və ya gec çatdırılma halları üçün heç bir öhdəlik daşınmır;

• tender sənədlərini xarici ölkələrdə kuryer-poçt vasitəsi ilə əldə etmək üçün əlavə olaraq 100 manat və ya 125 ABŞ dolları aşağıdakı hesab nömrəsinə köçürməlidir. İtki və ya gec çatdırılma halları üçün heç bir öhdəlik daşınmır;

• tender sənədləri yalnız köçürülmüş vəsait hesaba oturduqdan sonra kuryer-poçt və yaxud nümayəndəniz vasitəsi ilə əldə edə bilərsiniz;

• geri ödənilməyən məbləğ Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin hesabına qəbul edildikdən sonra iddiaçıların rəsmi nümayəndələri tender sənədlərini Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin ofisindən əldə edə bilərlər. Alternativ olaraq yazılı müraciət və ödənişin hesaba qəbulundan sonra Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tender sənədlərini kuryer-poçtla maraqlı iddiaçılara göndərəcək. Sənədlərin gec çatdırılması və ya itməsi halları üçün heç bir öhdəlik daşınmır.

***Benefisiarın adı: Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi (DMSTK)***

***VÖEN: 0200022991***

***Benefisiarın bankı: Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi***

***Kod: 502906***

***VÖEN: 0200087741***

***Müxbir hesab No:***

***AZ88NABZ01451700000000012944***

***SWIFT Kod: NABZAZ2C***

***Manat ilə hesab No:***

***AZ95NABZ12360150000000026944***

***ABŞ dolları ilə hesab No:***

***AZ91NABZ12360250000000001840***

7. Zəhmət olmasa, ingilis dilində olan tender təkliflərinizi (Azərbaycan dilində tərcüməsi ilə birlikdə təqdim edilsə, daha yaxşı olar) yuxarıdakı ünvana çatdırın:

• təkliflərin verilməsi üçün son tarix: 10 dekabr 2013-cü il, Bakı vaxtı ilə saat $10^{00}$-da və yaxud bu tarixdən əvvəl;

• tender sənədlərini tender sənədində göstərildiyi kimi, tender zəmanəti ilə birlikdə çatdırın;

• Azərbaycan dilinə tərcümə edilmiş tender təkliflərinə əlavə üstünlük verilmir.

8. Tender təklifləri təyin olunmuş son tarix tamamlandıqdan dərhal sonra iddiaçıların iştirak etmək istəyən nümayəndələri ilə birlikdə tender komissiyası tərəfindən açılacaq.

9. Təkliflərin qiymətləndirilməsi zamanı AİB-in yerli şirkətlərə üstünlük mexanizmi tədbiq edilməyəcəkdir.

# Invitation for bids

*Date: 30 September2013*

*Loan No. and Title: 2842-AZE: Water Supply and Sanitation Investment Program – Project 2*

*Contract No. and Title:*

*MFF-033-T2-ICB-1.06: Constructionof Nakhchivan City sidestream type MBR Wastewater Treatment Plant (International Competitive Bidding)*

*Deadline for Submission of Bids: 10 December 2013, $10^{00}$ A.M. Baku Time*

1. The Republic of Azerbaijan received a loan from the Asian Development Bank (ADB) towards the cost of the Water Supply and Sanitation Investment Program - Project 2. Part of this loan will be used for payments under the above mentioned contract.Bidding is open to the bidders from eligible source countries of the ADB.Qualifying requirements for assessment on a "Pass/Fail" basis are stipulated in Section 3, Evaluation and Qualification Criteria of the bidding document.

2. The State Amelioration and Water Management Committee (SAWMC) of the Nakhchivan Autonomous Republic,"The Employer" invites sealed bids from eligible bidders with wide experience in sidestream type MBR Wastewater Treatment Plantconstructionfor the Constructionof Nakhchivan Citysidestream type MBR Wastewater Treatment Plant, consisting of, but not limited to the followings:

3. Construction of a Waste Water Treatment Plant consisting of administration and information buildings, screen channel, grit chamber, stabilization basins, anaerobic and aerobic/anoxic tanks, sidestream type MBR system and related equipments, generator and transformer buildings, sludge tank and sludge dewatering unit, chlorination unit, SCADA system, valve chambers, asphalt roads, site works, etc.Average capacity of the waste water treatment plant will be 1327 m3/h, and in peak - hours it will be 700 l/sec.

The estimated implementation period is 548days.

4. All the works described above must be implemented as shown in the drawings and specifications. For further information the bidders should refer to the details indicated in Section 6, Employer's Requirement of the bidding document.

5. To obtain further information and inspect the bidding documents, bidders should contact:

***Mr. Ibrahim Mammadov, Director of Project Management Unit (PMU)***

***State Amelioration and Water Management Committee(ground floor, meeting room)***

***Nakhchivan City***

***Khatai district,***

***The Republic of Azerbaijan, Nakhchivan Autonomous Republic***

***Telephone: (+99436) 545-26-18***

***Facsimile number: (+99436) 545-30-67***

***Electronic mail address:***

***dmstk@nakhchivan.az***

6. To purchase the bidding documents in English, eligible bidders should:

• write to the above address requesting the bidding documents for Constructionof Nakhchivan Citysidestream type MBR Wastewater Treatment Plant

• pay a non-refundable fee of 200 Manatsor $250 USD by direct deposit to the Account No. mentioned below. No liability will be accepted for loss or late delivery.

• You may receive the bidding document by courier post or by your representative only after receiving of non-refundable fee in the Beneficiary's Bank account.

• The bidding document will be sent via courier post for an additional fee of 100 Manatsor $125 USD for overseas delivery. No liability will be accepted for loss or late delivery.

• Upon receipt of appropriate non-refundable fee to the Bank account of SAWMC, official representatives of the bidders may receive the bidding documents from the SAWMC office. Alternatively, SAWMC may dispatch the bidding documents to the interested bidders after receiving their appeal in written form and after receiving the required amount in the Bank account. No liability will be accepted for loss or late delivery.

***Beneficiary's Name: State Amelioration and Water Management Committee (SAWMC), Nakhchivan AR***

***TAX ID: 0200022991***

***Beneficiary's Bank:***

***Nakhchivan Office of the Central Bank of Azerbaijan Republic***

***Code: 502906***

***TAX ID: 0200087741***

***Correspondent Acc No:***

***AZ88NABZ01451700000000012944***

***SWIFT Code:***

***NABZAZ2C***

***Manat account No:***

***AZ95NABZ12360150000000026944***

***USD account No:***

***AZ91NABZ12360250000000001840***

7. Please deliver your bid in English language (preferable with Azeri translation)to the address above:

• on or before the deadline10 December 2013at 10:00 AM(Baku Time)

• together with a Bid Security as specified in the bidding document

• there is no extra superiority for the bids translated into Azeri

8. Bids will be opened immediately after the deadline in the presence of bidders' representatives who choose to attend.

9. During the bid evaluation process, no domestic preferences will be applied according to The ADB guidelines.

# "Araz-Naxçıvan" – "Mil-Muğan" oyununda hesab açılmayıb

Birinci divizionun III turu çərçivəsində "Araz-Naxçıvan" futbol komandası növbəti oyununu keçirib. İmişlidə "Mil-Muğan" komandasının qonağı olan qırmızı-ağlar "ev"ə bir xalla qayıtmağı bacarıblar. Oyun boyu üstünlüyü əldən verməyən muxtar respublika təmsilçisi cari mövsümdə keçirdiyi ikinci səfər matçını da məğlubiyyətsiz başa vurub. Bu görüşdə diqqət daha çox hakim Anar Niyazovun üzərində olub. Belə ki, A.Niyazov birinci və ikinci hissələrdə dəqiq penalti epizodlarında fit çalmayıb. İlk hissədə cərimə meydançasında əllə oynayan "Mil-Muğan" komandasının futbolçusunun bu "bacarığı" hakimin gözündən "yayınıb". Elə ikinci hissədə də eyni epizodda iki dəfə topa əllə müdaxilə edən rəqib futbolçusu hakimin çalmayan fitinə sevinib. "Araz-Naxçıvan" futbolçularının etirazına baxmayaraq, Anar Niyazov oyunu davam etdirib. Bundan sonra Naxçıvan təmsilçisi hücumlarının kəsərini artırsa da, hesabı dəyişə bilməyib. Bu heç-heçədən sonra "Araz-Naxçıvan" 7 xalla turnir cədvəlində ikinci pillədə qərarlaşıb.

Qeyd edək ki, "Araz-Naxçıvan" komandası növbəti turun oyununu da səfərdə keçirəcək. Belə ki, oktyabrın 6-da komandamız Qazaxda yerli "Göyəzən"in qonağı olacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

# Voleybol üzrə şəhər birinciliyi

Naxçıvan Türk Liseyinin idman zalında muxtar respublikamızda 2013-cü ilin "Heydər Əliyev ili" elan olunması ilə bağlı voleybol üzrə şəhər birinciliyi keçirilib. Ümumtəhsil məktəblərinin, Heydər Əliyev adına Hərbi Liseyin və Naxçıvan Türk Liseyinin komandaları arasında keçirilən birinciliyi Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyası birgə təşkil ediblər. Altı komandanın iştirak etdiyi yarışın yekun nəticəsinə görə, Heydər Əliyev adına Hərbi Liseyin komandası birinciliyin qalibi olub. Naxçıvan şəhər 6 və 13 nömrəli tam orta məktəblərin komandaları isə ikinci və üçüncü yerləri bölüşüblər.

Qalib komandalara yarışın təşkilatçıları tərəfindən diplomlar və hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Həsənov Əkrəm Allahqulu oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi iş yoldaşları Fərid Səfərova, babası **ƏSGƏRİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 3940. Sifariş № 883**